**Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)**

---

2024-cü il üzrə iqlim dəyişikliyinə qarşı mübarizə mövzusuna həsr olunmuş "Yerin müşahidəsi üzrə müsabiqə"nin

## Şərtləri

**Məqsəd**

"Yerin müşahidəsi üzrə müsabiqə"nin (Müsabiqə) keçirilməsində əsas məqsəd peyk məlumatlarının ölkə daxilində istifadəsini təşviq etmək və Azərbaycanda Yer səthinin məsafədən müşahidəsi xidmətlərinin inkişafına təkan verməkdir. 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi çərçivəsində müsabiqənin builki mövzusu iqlim dəyişikliyi və onunla mübarizədə kosmik həllərin tətbiqinə həsr olunur.

**Təşkilatçı**

Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)

**İştirak hüququ**

Universitetlərin müəllim heyəti və tələbələri, tədqiqat institutlarının əməkdaşları, müstəqil tədqiqatçılar və ya hər hansı tədqiqatla məşğul olan dövlət və ya özəl sektor təmsilçiləri, həmçinin istənilən fiziki şəxslər bu müsabiqədə iştirak edə bilərlər. Müsabiqə üçün təqdim olunan layihələrin əsas müəllifi qismində yalnız 18-35 yaş aralığında olan gənclər iştirak edə bilər. Layihənin həmmüəlliflərinə yaş məhdudiyyəti qoyulmur.

**Qeydiyyat**

- Müsabiqədə iştirak etmək istəyən şəxslər www.azercosmos.az saytında təqdim olunan iştirak formasını doldurmaqla qeydiyyatdan keçə bilərlər.
- Müsabiqədə iştirak etmək üçün **31.05.2024**-cü il tarixinədək müraciət oluna bilər. Son tarixdən sonra qəbul olunan müraciətlər növbəti ilin müsabiqəsi çərçivəsində qiymətləndiriləcək.
- Müraciət(lər) nəzərdən keçirildikdən sonra təsdiq olunduğu halda iştirakçıya təsdiq məktubu, peyk təsviri üçün forma və layihəni təqdim etmək üçün hesabat forması göndəriləcək.
- Tam şəkildə doldurulmuş sənədlərin təqdim edilməsindən sonra iştirakçıya Azersky arxiv peyk təsvirləri (tələb olunduğu halda emal olunmuş təsvirlər) təqdim olunacaq. İştirakçı öz layihəsini **15.09.2024**-cü il tarixinədək dəyərləndirmə üçün təqdim edə bilər. Bu tarixdən sonra bir ay ərzində münsiflər heyəti tərəfindən qiymətləndirmə aparılacaq və noyabr ayında nəticələr elan olunacaqdır.

İştirakçı tərəfindən formanın bütün xanalarının tam və düzgün doldurulması tələb olunur.

**Seçim**

Layihələr Təşkilatçı tərəfindən aşağıdakı meyarlar əsasında seçiləcək və qiymətləndiriləcək:

- Müsabiqə mövzusuna (iqlim dəyişiklikləri, onların təsirlərinə qarşı mübarizə və müvafiq sahələr üzrə dayanıqlı həll yolları) uyğunluğu;
- Layihənin Azərbaycan Respublikasının ərazisini əhatə etməsi;
- Layihədə peyk təsvirlərinin istifadə dərəcəsi;
- Təklif olunan mövzunun aktuallığı;
- Elmi-tədqiqat yönümlülüyü;
- Layihənin innovativliyi;
- Kommersiya yönümlülüyü, nəticələrin real hallərə çevrilmə imkanı;
- Layihənin Təşkilatçı tərəfindən təqdim olunmuş hesabat formasına uyğun hazırlanması.

Layihələrin qiymətləndirilmə prosesi Təşkilatçı tərəfindən öncədən təyin olunmuş münsiflər heyəti tərəfindən aparılacaq. Son qərar münsiflər heyəti tərəfindən qəbul olunur və nəticələr protokollaşdırılır.

Qalib layihələr üçün nəzərdə tutulmuş mükafat fondu aşağıdakı kimidir:

- 1-ci yerin qalibinə 5000 AZN, 2-ci yeri tutana 3000 AZN, 3-cü yeri tutan iştirakçıya isə 1500 AZN məbləğində mükafat veriləcək.
- Qalib layihələrin mövzusundan asılı olaraq onların müxtəlif beynəlxalq səviyyəli nəşrlərdə dərc olunması, patentlərin təmin olunması və digər mükafatlandırma mexanizmləri təmin oluna bilər.

Təşkilatçı müsabiqəyə təqdim olunmuş layihələrin arasından öz daxili prosedurlarına uyğun seçim etməkdə azaddır və seçim prosesinin nəticəsinə görə Müsabiqə iştirakçıları qarşısında məsuliyyət daşımır.

**Layihənin yerinə yetirilməsi müddəti**

İştirakçı tərəfindən Müsabiqəyə təqdim olunmuş layihələrin hazırlanması və qiymətləndirmə üçün təqdim olunması üçün son tarix 15 sentyabr 2024-cü il təyin olunmuşdur.

**Peyk məlumatları ilə təmin olunma**

Azərkosmos iştirak üçün seçilmiş layihələrin icraçılarını layihənin həyata keçirilməsi üçün tələb olunan Azersky peykinin arxiv təsvirləri ilə əvəzsiz olaraq təmin edəcək. Kosmik təsvirlərdən istifadə qaydaları və şərtləri qalib seçilmiş iştirakçıların imzalayacağı Lisenziya sənədi ilə tənzimlənəcək.

**Konfidensiallıq**

Təşkilatçı və iştirakçılar layihələrin məxfiliyini (seçilmiş təklifin adı və onun haqqında məlumatlar) Müsabiqənin nəticələri elan edilənədək qoruyacaqlar.

Təşkilatçı Müsabiqə iştirakçısının təklifinin ictimaiyyətə açıqlanması nəticəsində dəyən ziyana görə məsuliyyət daşımayacaq. Bu Müsabiqədə qeydiyyatdan keçən bütün iştirakçılar Müsabiqə nəticələrinin elan ediləcəyi tədbirdə çəkilən foto şəkillər də daxil olmaqla,

Təşkilatçıya təqdim etdikləri və ya edəcəkləri istənilən məlumatların Təşkilatçı tərəfindən ictimaiyyətə açıq formada, reklamda və ya istənilən yerdə və zamanda, həmçinin istənilən məqsədlə, heç bir təzminat və ya haqq ödəmədən istifadə edilə biləcəyinə dair razılıq verirlər.

**İştirakçının hüquqları**

İştirakçı öz təklifi üzərində müəlliflik hüquqlarını saxlayacaq, lakin Müsabiqədə iştirak İştirakçılara əlavə hüquqlar verməyəcək. İştirakçı öz təklifinin əqli mülkiyyət toxunulmazlığını özü təmin etməlidir.

**İştirakçıların öhdəlikləri**

İştirakçı:

- Təşkilatçı tərəfindən təqdim olunmuş materialları onun icazəsi olmadan üçüncü tərəfə ötürməməli;
- Layihənin nəticələrinə dair təşkil olunacaq tədbirdə iştirak etməli, tələb edildikdə layihə nəticələrini Təşkilatçıya təqdim etməlidir;
- Müsabiqədə iştirak üçün Azərbaycan dilindən fərqli dil istifadə olunacağı halda bu, Təşkilatçı ilə öncədən razılaşdırılmalıdır;
- Üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsinə görə və Müsabiqəyə təqdim etdiyi layihənin vaxtında yerinə yetirilməsinə görə cavabdehlik daşıyır.

**Digər şərtlər**

Təşkilatçı istənilən vaxt bu şərtləri dəyişmək və Müsabiqəyə xitam vermək, həmçinin heç bir iştirakçıya təzminat ödəmədən Müsabiqəni ləğv etmək hüquqlarını özündə saxlayır. Təşkilatçı iştirakçıları bu İştirak şərtlərinin dəyişməsi barədə vaxtında məlumatlandıracaq.

Bu şərtlər Azərbaycan Respublikasının qanunları ilə tənzimlənir.

**Əlaqə**

---

Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)
Üzeyir Hacıbəyli küçəsi 72,
Bakı, Azərbaycan, AZ1000
Tel: +994 12 3100055
eoscience@azercosmos.az
www.azercosmos.az